**Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2015-ci ilin yanvar-dekabr ayları ərzində sosial -iqtisadi inkişafın nəticələri haqqında**

**M Ə L U M A T**

***Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri***

Ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan sürətli inkişaf 2015-ci ildə də davam etmiş, istehsal və xidmət sahələrində yüksək artım sürəti təmin edilmişdir. Ümumi daxili məhsul istehsalı 2015-cü il ərzində ötən illə müqayisədə 1.1 faiz artaraq 54.4 milyard manata çatmışdır. ÜDM-in əhalinin hər nəfərinə düşən həcmi 5703.7 manat və ya 5558.7 ABŞ dolları təşkil emişdir..

Ümumi daxili məhsulun formalaşmasında xüsusi rol oynayan sənaye sahəsində 2015-ci ildə 26.2 milyard manatlıq məhsul istehsal olunaraq 2014-cü il illə müqayisədə 2.4 faiz artmışdır. Sənaye məhsulunun 61.9 faizi mədənçıxartma sektorunda, 29.9 faizi emal sektorunda, 7.3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0.9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxrma sektorunda məhsul istehsalı 2.0 faiz, o cümlədən əmtəəlik qaz hasilatı 5.5 faiz artmıç, neft hasilatı isə 0.7 faiz azalmışdır.

Emal sektorunda qida məhsulları istehsalı 2.9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 3.0 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 67.3 faiz, kağız və karton istehsalı 7.5 faiz, poliqrafiya məhsullarının istehsalı 86.7 faiz, kimya sənayesi məhsulları 43.2 faiz, tikinti materialları istehsalı 6.3 faiz, hazır metal məhsullarının istehsalı 54.1 faiz, kompyuter, elektron və optik məhsulların istehsalı 2.1 faiz, elektrik avadanlığları istehsalı 1.8 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 4.6 faiz, mebel istehsalı 10.1 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 2.7 dəfə artmış, toxuculuq məhsullarının istehsalı 55.2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 21.4 faiz, geyim istehsalı 44.2 faiz, içkilərin istehsalı isə 11.2 faiz azalmışdır.

**2015-ci ilin yanvar-dekabr aylarında ümumi daxili məhsulun strukturu**




2015-cü ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 15957.0 milyon manat həcmində vəsait yönəldilmişdir.

Əsas kapitala yönəldillmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 10615.5 milyon manat ( ümumi investisiyanın 66.5 faizi), bank kreditləri 1299.0 milyon manat (8.2 faizi), büdcə vəsaitləri 3005.0 milyon manat (18.8 faizi), büdcədənkənar fondların vəsaitləri 272.3 milyon manat (1.7 faizi), əhalinin şəxsi vəsaitləri 573.0 milyon manat (3.6 faizi), digər vəsaitlər isə 192.2 milyon manat (1.2 faizi) təşkil etmişdir.

**Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş investisiyanın strukturu**

Ümumi həcmdə xüsusi çəkisi, faizlə




2015-ci ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 222.4 milyon ton və ya 0.2 faiz çox yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 61.9 faizi avtomobil, 27.4 faizi boru kəməri, 7.7 faizi dəmir yolu, 3.0 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir. Qeyri-neft yüklərinin həcmi 1.6 faiz artaraq 161.6 milyon tona çatmışdır.

Ötən ildə qeyri-dövlət sektorunda yük daşınması 5.3 faiz artmış, bu sektora məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı daşımaların ümumi həcmində 80.3 faiz təşkil etmişdir.

Nəqliyyatçılar 1891.9 milyon sərnişinə və ya 2014-cü illə müqayisədə 3.5 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88.1 faizi avtomobil, 11.7 faizi metro nəqliyyatının xidmətlərindən istifadə etmişdir.

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması 2015-ci ildə 17.1 milyon ton yük, 1.9 milyon sərnişin daşınmış, 2014-cü illə müqayisədə müvafiq olaraq 21.6 faiz və 25.1 faiz azalma müşahidə olunmuşdur. İl ərzində orta hesabla sutkada 374 vaqon yüklənmiş, 466 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 15.3 min ton, Qərb istiqaməti üzrə 4.2 min ton və Cənub istiqamətləri üzrə 1.8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 6.6 milyon ton təşkil etmiş, əvvəlki illə müqayisədə 33.3 faiz azalmışdır. Yüklərin 64.9 faizini neft yükləri təşkil etmidir. İl ərzində **dəniz limanlarında** 8.55 milyon ton yukləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 94.3 faizini beynəlxalq tranzit yüklər təşkil etmişdir. 2016-cı ilin yanvar ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 132.4 min ton idxal yüklərin qalığı olmuşdur.

**Nəqliyyat sektorunda yük daşınması, min ton**




2014-cü il yanvar-dekabr 2015-ci il yanvar-dekabr

Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan **avtomobil nəqliyyatı** ilə 137.6 milyon ton yük, 1666.2 milyon sərnişin daşınmış və əvvəlki illə müqayisədə müvafiq olaraq 7.0 faiz və 3.6 faiz artmışdır. Sərnişinlərin 96.2 faizi avtobus, 3.8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 7.0 faiz, sərnişin dövriyyəsi isə 3.6 faiz artmışdır.

**Metro nəqliyyatı**nın xidmətlərindən il ərzində istifadə etmiş sərnişinlərin sayı 222.0 milyon nəfər olaraq 3.0 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 1.8 milyon və ya 1.8 faiz çox sərnişin daşınmış, daşımanın 99.5 faizi dövlət bölməsinə, 0.5 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə daşınmış yüklərin həcmi 3.3 faiz artaraq 127.9 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 45.7 milyon ton neft nəql edilmişdir. Nəqletmənin 76.2 faizi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan H. Əliyev adına BTC neft ixrac kəməri ilə həyata

keçirilmiş və il ərzində bu kəmər vasitəsilə 34.81milyon ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə 5.5 milyon ton tranzit nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 21.2 milyard kub-metr qaz nəql edilmişdir. Nəql edilmiş qazın 31.4 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 6.65 milyard kub-metr qaz ötürülmüşdür.

"**İpək yolu" nəqliyyat dəhlizi**nin Azərbaycana məxsus hissəsində 2015-ci ilin yanvar-noyabr aylarında yük daşınması 47.8 milyon ton, yük dövriyyəsi isə 10072.8 milyon ton-km olmuşdur. Yüklərin 27.89 milyon tonu və ya 58.3 faizi avtomobil nəqliyyatı, 14.25 milyon tonu və ya 29.8 faizi dəmir yolu, 5.69 milyon tonu və ya 11.9 faizi dəniz nəqliyyatı ilə daşınmışdır. Dəhliz vasitəsilə daşınan yüklərin 18.3 faizini və ya 8.74 milyon tonunu tranzit yüklər təşkil etmişdir.